## BQXK-nın Azərbaycandakı Nümayəndəliyinin bağlanması ilə bağlı tez-tez verilən suallar

Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) münaqişə ilə əlaqədar yaranmış humanitar ehtiyacları qarşılamaq məqsədilə 1992-ci ildən 2025-ci ilə kimi Azərbaycanda fəaliyyət göstərib. BQXK üç onillikdən çox müddətdə münaqişənin təsir etdiyi ərazilərdə yaşayan insanların təxirəsalınmaz və başlıca ehtiyaclarını qarşılamış, zərərçəkmiş icmalara psixoloji dəstək göstərmiş, hakimiyyət orqanlarına münaqişə ilə əlaqədar itkin düşmüş şəxslərin taleyini aydınlaşdırmağa kömək etmiş, beynəlxalq humanitar hüququ təbliğ etmiş, mina riskləri və təhlükəsiz davranışa dair məlumatlılığı artırmaq məqsədilə layihələr həyata keçirmişdir. Biz, həmçinin münaqişə ilə əlaqədar saxlanılan şəxslərin saxlanma şəraiti və onlarla rəftarı monitorinq etmək və ailələri ilə əlaqə saxlamalarına kömək məqsədilə başçəkmələr həyata keçirmişik.

Biz, Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin Beynəlxalq Federasiyası ilə koordinasiya şəraitində münaqişənin təsirinə məruz qalmış icmaların üzləşdikləri çətinlikləri yüngülləşdirmək üçün çalışmışıq.

### BQXK Azərbaycandakı ofisini hansı səbəbə görə bağlayıb?

Azərbaycan Respublikasının hakimiyyət orqanlarının qərarından sonra BQXK 2025-ci ilin sentyabr ayında ölkədəki ofisini bağlayıb. Bu dəyişikliyin beynəlxalq humanitar hüquq çərçivəsində qorunan şəxslərə olan öhdəliyimizi heç bir şəkildə azaltmadığını vurğulamaq vacibdir. Bu dəyişiklik sadəcə olaraq, bizim ölkə ərazisində fəaliyyət və mövcudluğumuzun milli hakimiyyət orqanları ilə əldə edilən razılaşmadan asılı olduğunu əks etdirir.

BQXK humanitar missiyasına tam sadiq qalır və Azərbaycan hakimiyyəti ilə əməkdaşlığımızın gələcəyi barədə dialoq aktiv şəkildə davam edir.Hakimiyyət orqanları ilə mövcud olan konfidensial və ikitərəfli dialoqa hörmət əlaməti olaraq aparılan müzakirələrin təfərrüatları barəsində məlumat verməyəcəyik.

### Azərbaycanda hansı fəaliyyətləri həyata keçirmisiniz?

30 ildən çox müddətdə BQXK Azərbaycanın humanitar mənzərəsinin bir hissəsi olaraq, insan şərəf və ləyaqətini, eləcə də uzunmüddətli dayanıqlılığı dəstəkləyərək, münaqişənin təsirinə məruz qalmış şəxslərin ehtiyaclarını qarşılayıb.

BQXK insanlıq, neytrallıq, qərəzsizlik və müstəqillik daxil olmaqla, humanitar prinsiplər və Cenevrə Konvensiyaları əsasında ona həvalə edilmiş unikal mandatını rəhbər tutaraq, Azərbaycanda münaqişənin eskalasiya dönəmləri daxil olmaqla, münaqişənin təsirinə məruz qalmış insanların ehtiyaclarını qarşılamaq üçün çalışıb. BQXK-nın humanitar fəaliyyəti münaqişənin təsirinə məruz qalmış icmaların, hakimiyyət orqanlarının və yerli tərəfdaşların ehtiyaclarının başa düşülməsinə və onlarla bilavasitə qurulan münasibətlərə əsaslanırdı.
Bu illər ərzində qurulmuş münasibətlər, sistemlər və bölüşülmüş təcrübələr Azərbaycanın hakimiyyət orqanları və Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə münasibətlərimizi formalaşdırmağa davam edəcək.

Azərbaycanda həyata keçirdiyimiz fəaliyyətlər barəsində daha ətraflı məlumat almaq üçün fotoşəkillər qalareyası, o cümlədən faktlar və rəqəmlər sənədinə nəzər salın.

### Azərbaycanda dəstək göstərdiyiniz icmalar necə olacaq?

Bilirik ki, saxlanılan yaxınları haqqında xəbərləri BQXK-dan alan ailələr üçün ölkədəki ofisin bağlanması qeyri-müəyyənlik və narahatlıq hisslərinə gətirib çıxaracaq. Hakimiyyət orqanları bu işi öz üzərinə götürüb, saxlanılan şəxslər və onların ailələri arasında ünsiyyətə şərait yaratmağa davam edəcəklər. BQXK beynəlxalq humanitar hüququn himayəsi altında olan şəxslərə

münasibətdə öhdəliklərinə sadiq qalacaq. BQXK-nın müvafiq mandatına və Cenevrə Konvensiyaları əsasındakı öhdəliklərinə müvafiq olaraq Azərbaycanın hakimiyyət orqanları ilə dialoq davam etdirilir.

İtkin düşmüş şəxslərin ailələrinə dəstək kimi digər qalan fəaliyyətlərimiz milli hakimiyyət orqanlarına təhvil verilib. Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası meyit qalıqlarının axtarışı və şəxsiyyətini müəyyən edilməsi fəaliyyətini davam etdirəcək.

Biz, Azərbaycan və Ermənistanın Dövlət Komissiyaları arasında əməkdaşlığı dəstəkləyir və onlarn birgə səylərinin nəticəsində itkin düşmüş şəxslərin ailələrinin uzun müddət gözlədikləri cavabları alacağına ümidvarıq. Hər iki tərəfdən müraciət olduğu halda neytral vasitəçi qismində onların arasındakı dialoq və fəaliyyətlərə dəstək göstərməyə hazırıq.

### Azərbaycandakı insanlar BQXK ilə necə əlaqə saxlaya bilər?

Azərbaycandakı ofisimizin 2025-ci ilin sentyabr ayında bağlanmasından sonra itkin düşmüş şəxslərin ailələrinə dəstək kimi fəaliyyətlərimiz milli hakimiyyət orqanlarına təhvil verilib.

Biz Azərbaycan tərəfinin haqqında məlumat verdiyi münaqişə ilə əlaqədar saxlanılan şəxslərə baş çəkməkdə davam edirik. BQXK-nın Baş Qərargahının nümayəndələri tərəfindən həyata keçirilən sonuncü başçəkmə 2025-ci ilin dekabr ayında olub.

Əlavə suallarınız olduğu təqdirdə BQXK-nın internet səhifəsindəki Contact Us bölməsinə keçib, müraciətinizi yazılı şəkildə bildirə bilərsiniz.

### BQXK Azərbaycanda işlədiyi müddətdə itkin yaxınımın tapılması üçün müraciət etmişdim. Bu iş bəs necə olacaq?

Biz Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası ilə yaxından əməkdaşlıq edirdik. İtkin düşmüş şəxslər haqqında toplanılmış məlumatlar onların ailələrinin razılığı əsasında Dövlət Komissiyasına təhvil verilib. Dövlət Komissiyası ailələrə cavablar vermək üçün itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması işini davam etdirəcək və əlavə məlumata ehtiyac olduqda Dövlət Komissiyası ilə əlaqə saxlanıla bilər.

Azərbaycandan kənarda baş vermiş münaqişələr ilə əlaqədar itkin düşmüş şəxslərlə bağlı Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə əlaqə saxlayın.

### BQXK ölkədəki ofisini gələcəkdə yenə aça biləcəkmi?

Neytral, humanitar təşkilat olaraq öz mandatımızı həyata keçirməyə hazırıq. Bizim ölkədəki fəaliyyətimiz və mövcudluğumuz həmişə hakimiyyət orqanlarının razılığından asılıdır.

### Azərbaycanda saxlanılan erməniəsilli şəxslərin statusu nədir? Onlara baş çəkmək sizin mandatınıza daxil deyil?

Azərbaycanın hakimiyyət orqanları tərəfindən haqqında bizə məlumat verilmiş münaqişə ilə əlaqədar saxlanılan bütün şəxslərə baş çəkirik. BQXK-nın Baş Qərargahının nümayəndələri tərəfindən həyata keçirilən sonuncü başçəkmə 2025-ci ilin dekabr ayında olub. BQXK beynəlxalq humanitar hüququn himayəsi altında olan şəxslərə münasibətdə öhdəliklərinə sadiqdir və işlərimizin gələcəyi ilə bağlı Azərbaycanın hakimiyyət orqanları ilə dialoq aparılır. Bizim istənilən ölkədə saxlanılan şəxslərə baş çəkmək imkanımız milli hakimiyyət orqanlarının razılığından asılıdır.

### Azərbaycanın hakimiyyət orqanlarının təşkilatın ölkədəki fəaliyyətini dayandırmaq qərarının səbəbləri barəsində BQXK ictimaiyyətə bəyanat verəcəkmi?

Biz, Azərbaycanın hakimiyyət orqanlarının verdiyi qərar barəsində şərh vermək iqtidarında deyilik.

### Ermənistandakı itkin düşmüş şəxslərin ailələri ilə yaxınlarının taleyi barədə işləməyə necə davam etdəcəksiniz?

Ermənistanda, itkin düşmüş şəxslər və onların ailələri bağlı fəaliyyətimiz davam edəcək. Hazırda 2020 və 2023-cü illərin eskalasiyaları ilə əlaqədar barəsində məlumat olmayan şəxslərin ailələrinə “Müşayiət” proqramı vasitəsilə dəstək göstəririk. Biz, məlumat mübadiləsi, eləcə də bilik və bacarıqların təkmilləşdirilməsi vasitəsilə Ermənistanın Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Agentliklərarası Komissiyası və məhkəmə-tibbi ekspertiza xidmətləri kimi dövlət qurumlarına dəstək göstəririk.

Biz, Azərbaycan və Ermənistanın Dövlət Komissiyaları arasında əməkdaşlığı dəstəkləyir və onlarn birgə səylərinin nəticəsində itkin düşmüş şəxslərin ailələrinin uzun müddət gözlədikləri cavabları alacağına ümidvarıq. Hər iki tərəfdən müraciət olduğu halda neytral vasitəçi qismində onların arasındakı dialoq və fəaliyyətlərə dəstək göstərməyə hazırıq.

### Azərbaycanda saxlanılan şəxslərin ailələri ilə əlaqə saxlamağa davam edəcəksinizmi?

Saxlanılan şəxslərin ailələri ilə BQXK-nın Ermənistandakı Nümayəndəliyi əlaqə saxlamağa davam edəcək, həmin ailələr nümayəndəliyə gəlmək və ya söhbət etmək istədikləri halda ofisin qapıları onlar üçün açıq olacaq. Münaqişə ilə əlaqədar saxlanılan şəxslərlə bağlı gələcək işimizə dair Azərbaycanın hakimiyyət orqanları ilə dialoqumuzu davam etdiririk. Yeni məlumatlar olan zaman bu məlumatlar ailələrə çatdırılır və biz bunu etməkdə davam edəcəyik.

### BQXK Azərbaycanı tərk etdikdən sonra Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə münasibətlərini davam etdirəcəkmi?

Həm BQXK, həm də Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının üzvləridir. BQXK, Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə birlikdə öhdəçilik və humanitar fəaliyyətindən qaynaqlanan və illər ərzində yaranmış işgüzar münasibətlərini davam etdirmək niyyətindədir.